## Azərbaycan və İran İslam Respublikası arasında qida təhlükəsizliyi üzrə əməkdaşlıq

- AQTA ilə İran İslam Respublikasının səlahiyyətli qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə 2025-ci ilin 28 aprel tarixində "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə İran Baytarlıq Təşkilatı arasında transsərhəd heyvan xəstəlikləri ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.
- 2021-ci il 5 may tarixində AQTA və İranın Bitki Mühafizəsi Təşkilatının nümayəndələri arasında videokonfrans formatında görüş keçirilib, gələcək əməkdaşlıq imkanları müzakirə olunub.
- 2021-ci il 9 fevral tarixində İranın Astara şəhərində Azərbaycan və İran gömrük xidmətlərinin nümayəndələri arasında işçi görüş keçirilib. Görüşdə beynəlxalq baytarlıq sertifikatı əsasında iri və xırdabuynuzlu heyvanların, quşçuluq məhsullarının və damazlıq materialların tranzit daşınması qaydaları müzakirə olunub.